*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 aprel 2015-ci il № 30 (1946) Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında fərman imzalayıb.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayevin etimadnaməsini qəbul edib.***

***Dövlətimizin başçısı Azərbaycan ilə Qazaxıstanın mühüm birgə iqtisadi, enerji, nəqliyyat layihələrini həyata keçirdiyini deyərək bütün bunların əməkdaşlığımızın potensialının daha da gücləndirilməsi işinə xidmət etdiyini bildirdi.***

* * *

***✓Aprelin 20-də Bakı Su İdmanı Sarayının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı Su İdmanı Sarayının rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Su İdmanı Sarayında yaradılan şəraitlə tanış oldular.***

***Qeyd edək ki, 2015-ci ildə Odlar Yurdu Azərbaycandan start götürəcək Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar Avropa Olimpiya Komitəsinin Baş Assambleyasının 41-ci sessiyasında qəbul olunub. Ölkəmizin namizədliyi 38 dövlət tərəfindən dəstəklənib.***

***Bu il iyunun 12-dən 28-dək keçiriləcək ilk Avropa Oyunlarında isə 49 ölkədən 6 mindən artıq atlet idmanın 20 növü üzrə mübarizə aparacaq.***

* * *

***✓Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, "Bakı 2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Bakı İdman Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar.***

***Gənclər və idman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, təmir zamanı binanın damı və fasadı, işıqlandırma sistemi yenilənib, ətrafda geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri görülüb.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Rusiyanın "Rostex" Dövlət Korporasiyasının baş direktoru Sergey Çemezovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan ilə Rusiya arasında əlaqələrin çox yüksək səviyyədə olduğu bildirildi, müdafiə sənayesi, maşınqayırma, yüksək texnologiyalar, əczaçılıq və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.***

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Prezidenti İlham Əliyev İranın Müdafiə və Silahlı Qüvvələrə dəstək nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə dəstək naziri Hüseyn Dehqanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə həm Azərbaycanda, həm İranda, həm də beynəlxalq təşkilatlar çərçivəsində görüşlərinin önəmini bildirən Prezident İlham Əliyev birgə səylər nəticəsində əlaqələrimizin müxtəlif sahələrdə yüksək səviyyəyə qalxdığını qeyd etdi. Dövlətimizin başçısı müxtəlif səviyyəli qarşılıqlı səfərlərin rolunu vurğulayaraq hərbi sahədə də əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev İranın Müdafiə və Silahlı Qüvvələrə dəstək naziri Hüseyn Dehqanın ölkəmizə səfərinin münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Nazir Hüseyn Dehqan İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. İranın Müdafiə və Silahlı Qüvvələrə dəstək naziri İran-Azərbaycan münasibətlərinin daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladı. O, ulu öndər Heydər Əliyevin müasir İran-Azərbaycan əlaqələrinin memarı olduğunu qeyd edərək bu gün Prezident İlham Əliyevin göstərdiyi siyasi iradə və qətiyyətin münasibətlərimizin gələcək inkişafı üçün möhkəm zəmin yaratdığını bildirdi.

Görüşdə hərbi-texniki əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## "Xocalı soyqırımı: ikili standartlar və yüz ilin erməni yalanları" mövzusunda konfrans keçirilib

Aprelin 18-də Beynəlxalq Mətbuat Mərkəzində "Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatı" İctimai Birliyinin təşkilatçılığı və Türkiyədən gələn bir qrup QHT təmsilçisinin iştirakı ilə "Xocalı soyqırımı: ikili standartlar və yüz ilin erməni yalanları" mövzusunda konfrans keçirilib. Konfrans çərçivəsində Anadolu Aydınlar Ocağının sədri, professor İbrahim Öztekin "Dünəndən bu günə erməni təcavüzü və Xocalı soyqırımı" kitabının təqdimatı olub.

"Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatı" İctimai Birliyinin sədri Vüqar Qədirov Çanaqqala zəferinin 100-cü ildönümü ərəfəsində belə bir kitabın nəşr olunmasının önəmini qeyd edib. O, tarix boyu ermənilərin azərbaycanlılara və türklərə qarşı törətdiyi terror aktlarından söhbət açıb.

İbrahim Öztek tədbirdə çıxış edərək deyib ki, Azərbaycan və Türkiyə qardaş ölkələr olaraq tarix boyu hər zaman düşdüyü bütün çətin vəziyyətlərdə bir-birinə kömək edib. Hər iki ölkə ermənilərin şər və böhtanlarına, təcavüzünə məruz qalıb. Belə hallarla yenidən üzləşməmək üçün sıx birlik vacibdir.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin əməkdaşı Rasim Mirzəyev Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq və etnik təmizləmə siyasətindən, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrindən danışıb. O bildirib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün qarşısı yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra alınıb.

R.Mirzəyev qeyd edib ki, Azərbaycan-Türkiyə əlaqələri qırılmaz tellərlə bir-birinə bağlıdır. Bu cür münasibətlər bütün türk ölkələri arasında olmalıdır. Türk dünyası birlikdə hərəkət edərək bütün problemlərin öhdəsindən gələ bilər.

Diqqətə çatdırılıb ki, ermənilər öz havadarlarının köməyi ilə uydurma "soyqırımı"ndan Türkiyəyə və Azərbaycana qarşı silah kimi istifadə etməyə çalışırlar. Onların bu cəhdlərinə qarşı birlikdə mübarizə aparılmalıdır.

Konfransda digər çıxış edənlər ermənilərin tarix boyu Azərbaycana qarşı işğalçılıq siyasətindən danışıblar. Vurğulanıb ki, İbrahim Öztekin yazdığı kitab türk dünyasının Dağlıq Qarabağ münaqişəsi, xüsusilə Xocalı soyqırımı barədə məlumatlandırılması baxımından önəmli bir əsərdir.

Konfransda Azərbaycan və Türkiyə dostluğunun inkişafında göstərdikləri xidmətlərə görə bir qrup Azərbaycan ziyalısı Anadolu Aydınlar Ocağının mükafatlarına layiq görülüb. Eyni zamanda, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında göstərdikləri fəallığa və Çanaqqala zəfərinin 100 illiyi münasibətilə türkiyəli nümayəndələrə diplomlar verilib.

Tədbirin sonunda Azərbaycan və Türkiyə QHT-ləri Avropa Parlamentinə etiraz bəyanatı qəbul edib.

**AZƏRTAC**

## Rəcəb Tayyib Ərdoğan: İlk növbədə Qarabağ problemi həll olunmalıdır

Bizimlə və qardaşlarımızla problemi olan erməni diasporu və Ermənistan dövlətidir. Qondarma "erməni soyqırımı" iddiaları və Qarabağın işğaldan azad edilməsi istiqamətində müsbət addımlar atsalar, onlarla hər növ əməkdaşlığa hazırıq. Bu iradəni, bu cəsarəti göstərəcək erməni siyasətçiləri, Ermənistan rəhbərliyi ilə görüşməyə, danışmağa daim hazırıq. Amma, ilk növbədə Qarabağ problemi həll olunmalıdır.

Bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qondarma "erməni soyqırımı" ilə bağlı Roma Papası Fransiskin sözlərini və Avropa Parlamentinin qətnaməsini kəskin tənqid edərkən deyib. Qardaş ölkənin dövlət başçısı bir daha bildirib ki, Türkiyə Birinci Dünya müharibəsinə dair arxivləri açıq elan edib. Əgər Ermənistanın və başqa ölkələrin də arxivləri varsa, onlar da açsınlar.

Türkiyə mediasının məlumatına görə, dövlət başçısı qeyd edib ki, qondarma "erməni soyqırımı" ilə bağlı əsassız bəyanatlar verən avropalıların məqsədi heç də ermənilərin hüquqlarını qorumaq deyil. O bildirib ki, Türkiyə dövləti bu ölkədə yaşayan ermənilərin hüquqlarını tam təmin etməklə bərabər, Ermənistandan gələnlərə də sığınacaq verib. Amma bu humanistlik Avropada yoxdur.

**AZƏRTAC**

## Misir mətbuatı: "Erməni soyqırımı" haqqında iddialar anti-müsəlman və anti-türk meyillərin güclənməsinin təzahürüdür

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Avropa Parlamentinin qondarma "erməni soyqırımı" ilə bağlı qətnaməsinə dair mətbuata verdiyi açıqlaması Misir mətbuatında geniş işıqlandırılıb.

Xəbər portalları qeyd edirlər ki, Əli Həsənov bu qətnamənin qəbul edilməsinin hazırda Avropada, Qərbin təşəbbüsü ilə yaradılan əksər beynəlxalq qurumlarda, o cümlədən və xüsusilə Avropa Parlamentində ikili standartların və islamofob əhval-ruhiyyənin hökm sürdüyünün göstəricisi olduğunu vurğulayıb: "Neçə illərdir biz bütün dünyaya, həmçinin Avropa ölkələrinə və qurumlarına yarası hələ sağalmamış Xocalı soyqırımı haqqında həqiqətləri, son 200 ildə ermənilərin türklərə və azərbaycanlılara qarşı törətdiyi vəhşilikləri real faktlarla çatdırırıq. Amma bunun qarşılığında Avropa ölkələri, Avropa Parlamenti, Avropa Şurası kimi qurumlar məsələ ilə bağlı obyektiv, real yükü olan heç bir qərar qəbul etməyib".

Misir mətbuatı yazır ki, Azərbaycan Prezidentinin köməkçisi "erməni soyqırımı" haqqında iddiaların subyektiv mülahizələrə söykəndiyinə, islamofob, anti-müsəlman və anti-türk meyillərin güclənməsinin təzahürü olduğuna diqqət çəkib.

## "The Press and Journal": Ağdam "Qafqazın Xirosiması"dır

Ağdam "Qafqazın Xirosiması"dır. Hazırda Ağdam insan həyatının əlamətləri görünməyən bir kabuslar şəhəridir.

Bu fikirlər Şotlandiyanın "The Press and Journal" nəşrində dərc edilən məqalədə öz əksini tapıb.

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində hazırkı vəziyyəti öyrənmək məqsədilə Ağdam şəhərinə getdiyini yazan məqalənin müəllifi vaxtilə Azərbaycanın çiçəklənən şəhəri olan, indi isə acınacaqlı vəziyyətə düşmüş Ağdamda ermənilərin hər şeyi dağıtdıqlarının şahidi olduğunu yazır. Azərbaycan ərazisi olan Ağdamın ermənilər tərəfindən zəbt edildiyini vurğulayan müəllif şəhərin mərkəzində yalnız bir məscid qaldığını diqqətə çatdırır. O yazır ki, həmin məsciddən 100 metr aralıda heç kəs yox idi, ətrafda qorxunc sakitlik var idi. Məsciddə güllə izləri var idi, yerdə qəlpələr qalmışdı. Burada hər şey baxımsız vəziyyətdə idi, müqəddəslikdən əsər-əlamət belə qalmamışdı. Vaxtilə burada yaşayan və bu məscidə gələn insanların ağrı-acısını təsəvvür etmək mümkün deyil.

Müəllif yazır: "Mən pillələrlə yuxarı qalxdım və tamamilə dağıdılmış şəhərə baxdım. Orada çox qala bilmədim. Sonradan anladım ki, Ağdama səfərim həyatımın ən böyük səhvi olub. Çünki ermənilər orada məni izləyirdilər və fotolarımı çəkirdilər".

**AZƏRTAC**

# Azərbaycan və İranın Müdafiə nazirlərinin görüşü








***Aprelin 20-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə dəstək naziri general-mayor Hüseyn Dehqanla görüşüb.***

General-mayor H.Dehqanın rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Hər iki ölkənin dövlət bayraqları qaldırılıb, qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra Dövlət himnləri səsləndirilib. Rəsmi protokola uyğun olaraq general-mayor H.Dehqan Şərəf kitabını imzalayıb.

Nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşündə Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan və İranın münasibətlərində qarşılıqlı etimadın yaradılması və inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin və ölkə başçısı cənab İlham Əliyevin xidmətlərini xüsusi qeyd edib. Müdafiə naziri iki ölkə arasında əməkdaşlığın dostluq münasibətləri, qarşılıqlı inam üzərində qurulduğunu və bu əlaqələrin daim inkişaf etdiyini bir daha vurğulayıb.

General-polkovnik Zakir Həsənov bölgədəki hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində ərazilərimizin işğal olunması faktını, bir milyonadək qaçqın və məcburi köçkün soydaşlarımızın problemini, o cümlədən münaqişənin regional sabitliyə əsas təhlükə yaratdığını diqqətə çatdırıb.

General-mayor H.Dehqan öz növbəsində dövlətlərimizin əlaqələrinin qədim tarixə, mehriban dostluq ənənələrinə əsaslandığını, iki ölkə arasında siyasi, iqtisadi, mədəni, təhlükəsizlik və hərbi sahədə böyük əməkdaşlıq potensialının olduğunu vurğulayaraq, İranın Azərbaycanın ərazi bütövlüyünü və ədalətli mövqeyini dəstəklədiyini bir daha bəyan edib.

Sonra Azərbaycan və İran Silahlı Qüvvələri arasında əlaqələrin perspektivləri və müdafiə sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Möhsün Pakayin də iştirak edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

---

***Yazın gəlməsinə baxmayaraq, dağlarda hələ qar var. Həmin gün hava dumanlı, yağışlı idi. Dolanbac yollarla ön xətdə yerləşən taborun qərargahına gəldik. Burada bizi mayor Anar Həsənov qarşıladı. Çətin, ağır iqlim şəraiti olan yerdə xidmət etməyin bir özəlliyi də var ki, insan belə mühitdə xidmət etdikcə daha da mətinləşir. Necə deyərlər, - həyatın bərkindən-boşundan çıxırsan. Belə ağır sınaqlarla üzləşən insanın normal gələcəyini qurmaqda elə də çətinliyi olmur. Elə buna görə də bu gün qarlı dağlar qoynunda xidmət edən oğullarımız nurlu sabahın yolundadırlar.***

*Döyüş hazırlığı*

# Hazırlıqlı minaatanlar



Cəbhə xəttindəki son vəziyyəti xəbər alanda hər şeyin qaydasında olduğunu öyrəndik. Təhlükəli mövqelərdə əsgərlərimiz döyüş növbətçiliyini ayıq-sayıq aparırlar. Ümumiyyətlə, burada xidmət aparan zabit və gizirlər üzərlərinə düşən məsuliyyəti dərindən başa düşürlər. İlk təəssüratımdan bəlli olurdu ki, ön mövqedə xidmət aparan Vətən oğulları istənilən döyüş tapşırığını yerinə yetirmək əzmindədirlər.

Həmsöhbətim əsgər Mikayıl Məmişov böyük bir hissəsi erməni işğalı altında olan Füzuli rayonundandır. Dağlar qoynunda düşmənlə üz-üzə xidmət etməkdən qürur duyduğunu deyir. Mikayıl minaatan heyətin üzvüdür. Müntəzəm olaraq məşğələlər keçirildiyini deyən əsgər döyüş-atışlı təlimlərdə iştirak etdiyini və hər təlimi uğurla başa vurduqlarını deyir. Hazırda müfəssəl bilik və bacarıqlara yiyələnən əsgər qarşıda duran istənilən döyüş tapşırığının öhdəsindən bacarıqla gəlməyə qadir olduğunu bildirir.

Minaatan heyətinə yüksək döyüş və mənəvi-psixoloji vərdişlər aşılayan baş leytenant Vüsal Qurbanov söhbətimizə qoşulur. Vüsal deyir ki, dağlıq şəraitdə qərar qəbul edib döyüş aparmağın mümkün yollarını tabeliyində olan heyət üzvlərinə izah edir.

Zabit V.Qurbanov bir neçə il bundan öncə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini "yerüstü artilleriya" ixtisası üzrə bitirib. Taqım komandiri kimi hərbi xidmətə elə bu dağlar qoynunda yerləşən hərbi hissədə başlayıb. Artilleriyaçı zabit burada xidmətini davam etdirməkdən qürur duyduğunu, əsgərlərinə minaatanın sirlərini həvəslə aşıladığını, onlara müharibədə qalib gəlməyin yollarını yetərincə izah etdiyini vurğulayır.



Minaatan heyətin digər üzvləri ilə görüşürəm. Tuşlayıcı əsgər Bəhaləddin Ələddinli Qəbələ rayonunun Vəndam kəndindəndir. Komandir bu əsgərin nizam-intizamından, hərbi biliklərə yiyələnməyindən söz açdı. Bildirdi ki, Bəhaləddin həmişə xidmətə məsuliyyətlə yanaşır. Onun davranışı, intizamı hər bir yoldaşına da örnəkdir.

Heyət üzvlərindən əsgər Elnur İbayev də düşmən işğalı altında olan Cəbrayıl rayonundandır. Doğma yerlərindən köçkün düşən döyüşçü ailəsi Biləsuvar rayonundakı Cəbrayıl qəsəbəsində məskunlaşıb. Elnur deyir ki, onun ən böyük arzusu işğalda olan ərazilərimizin tezliklə azad olunmasıdır. Onun silahdaşı lerikli Əhməd Əsgərov da eyni arzuda olduğunu söylədi. Əhməd bir ilə yaxındır hərbi xidmətdədir. O da komandirlərinin səyi nəticəsində minaatan silahını mükəmməl öyrənib. Erməni işğalçılarına qarşı savaşda məxsus olduğu silahdan yüksək səviyyədə iştifadə etməklə düşməni ağır itkilərə düçar edəcəyini deyir.

Əlbəttə, bu gün orduda xidmət edən hər bir əsgərin əsas məqsədi, amalı silah və döyüş texnikalarının sirlərini mükəmməl öyrənməklə torpaqlarımızı işğaldan azad etməkdir.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

---

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edəcəklər

Aprelin 20-dən 22-dək Buxarest şəhərində (Rumıniya) qabaqcıl öyrətmə metodları üzrə seminar keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***21 aprel 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 37 dəfə pozub.

Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərindən Qazax rayonunun Kəmərli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Ağdam rayonunun Şuraabad, Cəvahirli, Sarıcalı, Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

Bəzi elektron kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə hərbi texnikanın, canlı qüvvənin hərəkəti ilə bağlı video görüntülər yayılıb.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, hərbi hissələrin, döyüş texnikasının, şəxsi heyətin və digər hərbi elementlərin dislokasiya yerinin dəyişməsi, əvəzlənməsi və yenilənməsi Silahlı Qüvvələrin komandanlığının səlahiyyətləri çərçivəsindədir və əvvəlcədən təsdiq edilmiş plana uyğun olaraq həyata keçirilir.

Qoşunların döyüş hazırlığı səviyyəsinin yoxlanılması məqsədilə Müdafiə nazirinin əmrinə və Silahlı Qüvvələrin Baş Qərargah rəisinin sərəncamına əsasən, hərbi hissə və birləşmələr planlı şəkildə "Həyəcan" siqnalı ilə qaldırılaraq onların döyüş qabiliyyəti və manevr imkanları yoxlanılır.

* * *

Aprelin 21-də cəbhənin Tərtər istiqamətində erməni silahlı birləşmələri ilə döyüş toqquşması baş verib. Qısa müddətli döyüşdə Silahlı Qüvvələrimizin bölmələri düşmənə ağır zərbə endiriblər. Nəticədə düşmənin 5 hərbiçisi məhv edilib, 10 nəfərədək yaralısı var.

Ermənistan hərbi-siyasi rəhbərliyi növbəti dəfə itkilərini ictimaiyyətdən gizlətmək məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə guya təxribat törətməsi barədə yalan xəbərlər yaymaqla çaşqınlıq yaratmağa cəhd göstərir və yaxın günlərdə müxtəlif bəhanələrlə həlak olan və yaralananlar haqqında məlumatları ortalığa çıxaracaqdır.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Silahlı Qüvvələri itki vermədən bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və düşmənin istənilən hərəkətinin qarşısını almağa hər an hazırdır.

---

# Həsən Zeynalov: Ermənistanın işğalçılıq siyasətinin davam etməsində ikili standartların böyük rolu var

Türkiyənin "Yeni çağ" qəzeti Azərbaycanın İstanbuldakı baş konsulu Həsən Zeynalovun müsahibəsini dərc edib. Müsahibədə Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin tarixinə və bu gününə nəzər salınır, Ermənistanın işğalçılıq siyasətinin davam etməsində dünyadakı ikili standartların rolu diqqətə çatdırılır. Ermənilərin uzun zaman kəsiyində Azərbaycanda və Türkiyədə törətdikləri cinayətlərdən danışan diplomat deyib ki, Avropa Parlamentinin uydurma "erməni soyqırımı" barədə qətnaməsi bir daha nümayiş etdirdi ki, Avropa ölkələri üçün kimin haqlı olması yox, öz maraq və mənafelərinə çatmaq daha üstündür. Baş konsul deyib ki, Çanaqqala zəfəri 1915-ci il hadisələrinin güzgüsüdür. O dövrün hadisələrini təhrif etməklə tarixi həqiqətə ləkə salmaq mümkün deyil.

Müsahibədə diplomat Prezident İlham Əliyevin Praqada Ermənistan prezidenti Serj Sarkisyana tutarlı cavabını xatırladıb. Baş konsul bildirib ki, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətləri keçmiş Sovet İttifaqı dövründə unutdurmağa çalışsalar da, ötən əsrin sonunda ermənilər imkan tapan kimi yenidən Azərbaycana qarşı düşmənçiliyə başladılar. Bunun nəticəsində də Xocalı soyqırımı törədildi.

Diplomat vurğulayıb ki, ermənilərin Azərbaycana və Türkiyəyə qarşı əsassız iddialarının qarşısını almağın yeganə yolu Ermənistanın işğalçılıq siyasətinə son qoymaqdır.

Baş konsulun müsahibəsi Türkiyənin digər kütləvi informasiya vasitələrində də yayılıb.

**AZƏRTAC**

---

*Əsgərin tribunası*

# Anda həmişə sadiq qalacağam

***Tovuz rayonunun Əlmərdanlı kəndində dünyaya göz açmışam. Kəndimiz cəbhə xəttinə yaxın olduğundan, tez-tez atəş səsləri eşidirdik. Amma bu bizi qorxutmurdu. Ordumuza arxayın olub rahatca yaşayıb təhsil alırdıq. Bilirdik ki, zabit və əsgərlərimiz gecə-gündüz əldə silah bizi qoruyurlar. Yaşa dolub həyatı dərk etdikcə torpaqlarımızı işğal etmiş erməni işğalçılarına nifrətim artırdı. Ürəyim qisas və intiqam hissi ilə döyünürdü.***



Hərbi xidmətə gəldiyim gündən hərbi bilik və vərdişləri həvəslə mənimsəməyə başladım. Komandirlərimdən öyrəndim ki, xidmət edəcəyim bu hərbi hissənin şəxsi heyəti Qarabağ müharibəsinin od-alovundan keçib. Zabit və əsgərlər qanlı döyüşlərdə hünər və rəşadət göstəriblər. Deməli, mən də bir əsgər kimi silahların dilini yaxşı öyrənib, hazırlığımı artırmalı, sələflərimin döyüş yollarını şərəflə davam etdirməliyəm. Bu məqsədlə hərbi xidmətimin ilk günlərindən dərs və məşğələlərdə fəal iştirak edirəm. Qısa müddət ərzində döyüş hazırlığımı artırmışam, sınaq atışlarında yaxşı nəticələr qazanıram.

Hələ kiçik yaşlarımdan texnikaya marağım var idi. Ordu həyatında marağım daha da artdı. Texnika ilə işləmək ürəyimcədir. Xidmət müddətində kurs keçib dizelçi-elektrik peşəsinə yiyələndim. Öyrəndiklərimə görə zabit Rafiq Cəfərova minnətdaram. Xeyli müddətdir ki, xidmətimi dizelçi-elektrik kimi davam etdirirəm. Çalışıram ki, üzərimə düşən bütün işlərin öhdəsindən bacarıqla gəlim, verilən tapşırıqları vaxtlı-vaxtında icra edim.

Vətənə əsgər olmaqdan qürur duyuram. Mənim üçün həyatda bundan şərəfli heç nə yoxdur. Əsgəri xidmətimin xeyli hissəsi hələ qarşıdadır. İçdiyim hərbi anda həmişə sadiq qalaraq üzərimə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışacağam.

**Asif XƏLİLOV,
"N" hərbi hissəsinin əsgəri**

---

# Hərbi Akademiyada görüş

Aprelin 20-də Pakistan İslam Respublikası Milli Müdafiə Universitetinin və "Milli Təhlükəsizlik və Müharibə kursu"nun nümayəndə heyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında olub.

Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev qonaqları səmimi qarşılayıb və son illər ölkəmizdə gedən ordu quruculuğu prosesi haqqında ətraflı məlumat verib.

Pakistan nümayəndə heyətinin rəhbəri briqada generalı Manoçehr Kayani səmimi qəbula görə təşəkkürünü bildirib.

Tədbirdə "Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ problemi", "Xəzər dənizinin statusu" mövzularında brifinqlər keçirilib.

Briqada generalı M.Kayani Hərbi Akademiyanın fəxri qonaqlar üçün nəzərdə tutulan kitaba ürək sözlərini yazıb.

**"Azərbaycan Ordusu"**

# Hərbi Akademiyada elmi seminar

***"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 2015-ci il elmi iş planı"na əsasən, Hərbi Akademiyada "Azərbaycan Respublikası inkişafın yeni mərhələsində: varislik, novatorluq və dinamizm" mövzusunda elmi seminar keçirilib.***



Seminarda Müdafiə Nazirliyinin nümayəndələri, eləcə də Akademiyanın professor-müəllim heyəti və dinləyiciləri iştirak ediblər.

Seminarı giriş sözü ilə Hərbi Akademiyanın adyunktura və elm şöbəsinin rəisi, professor polkovnik Elşən Həşimov açıb.

Sonra məruzə ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirov çıxış edərək ölkəmizin müasir inkişaf dövrünün geniş təhlilini verib, dövlətimizin sürətli inkişafında varislik, novatorluq və dinamizm amillərinin rolunu ətraflı şərh edib.

Heydər Əliyev siyasətinin üç amilinin bu varislik prinsiplərində necə yaşamasını qeyd edən E.Nəsirov ulu öndərin ən müdrik addımlarından birinin "Əsrin müqaviləsi"nin imzalanması olduğunu bildirib.

O, çıxışında ulu öndər Heydər Əliyevin ölkəmizdə müasir müstəqil dövlət quruculuğu ilə yanaşı, dövlət idarəçilik təliminin də əsasını qoyduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan mədəniyyətini, adət-ənənələrini, azərbaycançılığı xarakterizə edən dəyərlər, onların sistemləşdirilmiş idarəçiliyin əsasında dayanması, novatorluq, dinamizm ümummilli lider Heydər Əliyevin dövlət idarəçilik təlimini xarakterizə edən əsas amillərdir.




Məruzəçi çıxışında dövlətimizin başçısı İlham Əliyevin fəaliyyəti ilə daim Heydər Əliyev siyasətinə varisliyini nümayiş etdirdiyini xüsusi vurğulayıb. Məhz bu varislik nəticəsində Heydər Əliyev siyasəti bu gün Azərbaycanda yaşayır, inkişaf etdirilir və uğurlar qazanır.

Professor E.Nəsirov çıxışında Azərbaycanın müasir xarici siyasətini də şərh edərək Qafqaz regionunda və ümumilikdə dünyada gedən bəzi siyasi proseslərin açıqlamasını verib.

Elmi-praktik cəhətdən əhəmiyyətli olan məruzə ətrafında diskussiyalar aparılıb və dinləyicilərin sualları məruzəçi tərəfindən cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Qələbə - 70*

# Biz də tarix yazacağıq!..




...Ağcabədidə Böyük Qələbənin 70 illiyinə həsr olunan tədbirdəydim. İcra Hakimiyyətinin qarşısında qələbəlik artmaqdaydı...

Əsasına söykənən ağsaqqalı görüncə ayaq saxlayıram; gözlərimi sinəsində 70 ilin o üzündə qalanların təltifləri çəkir...

Arada dayanır, nəfəsini dərir. Qəlbindən nələr keçdiyi bilinməz. Duya bilsən duymalısan. Ömür getdi, gün getdi təəssüfünü o da yaşayır. Bu çarəsiz təəssüfdə bir şükranlıq da sezilir. Əlini gözünün üstünə qoyub göy üzünə boylanır...

Müharibədə həlak olanların şəkillərinə baxır. Qaşları düyünlənir. Gözlərini şəkillərdən üzə bilmir. Kimi arayır şəkillər arasında - komandirinimi, dostunumu, özünü-mü? Veteranı düşüncələrindən ayırmağı bacarmıram. Üç addımlığında ayaq saxlayıram...

Görəsən, yaddaşı illərin sınağından necə çıxıb? Kövrək xəyalı onu 70 ilin o üzünə aparıb...

Baxışlarımız görüşür...

Söhbətə körpü salmaq üçün 93 yaşlı ağsaqqala "Atam da müharibə iştirakçısıydı. Son nəfəsinəcən o illəri unutmadı..." - deyirəm. Üz-gözünü anlaşılmaz bir ifadə bürüyür. Üzümə baxır. İncik baxışlarından sıxılıram.

- Unutmazdı, qətiyyən unutmazdı, - deyir Nəriman kişi. - Yəqin ki, atan da çəkdiyi əziyyətləri dilə gətirməzdi, döyüşçü dostlarını heç vaxt unutmazdı...

Səsi titrəyir. O ürkəcək titrəyişi ürəyimdə hiss eləyirəm...

Kəlmələr düşüncələrimi "tərpədir". Son məqsəd naminə - qələbə naminə döyüşənlərin heç biri o illərdə hər an ölüm təhlükəsi yaşadığından danışmır. Heç birindən özünə ad olan əzab-əziyyət yüklü kəlmə eşitməmişəm. Söz düşəndə, ağrı-acı dilləndirəndə, ürək ağrısıyla döyüşçü dostlarından danışıblar....

O illərdə müharibəyə gedənlərin hamısının "əyninə ölüm paltarı biçilmişdi". Gedənlərdən gələn gəldi, səssiz-izsiz qeyb olanların ata-anası, bacısı-qardaşı, oğul-uşağı son nəfəsinəcən yol gözləyir. Yaşayanlar indiyəcən gözləməkdədi...

...1940-cı il. Nəriman Məmmədov Ağcabədidən Bakıya yola düşür - əsgərliyə gedir...

Ukraynada, Xarkov şəhərində xidmət edir...

...Müharibə başlayıb. Almanlar SSRİ-nin daxilinə doğru sürətlə irəliləyir; minlərlə əsgərimiz həlak olur...

Nəriman Məmmədov da döyüşən ordu sıralarındadı. Cəsarətlidi, qətiyyətlidi. İlk döyüşdən bu günəcən təkrarladığı bir qənaəti pıçıldayır döyüşçü dostu Şotaya: "Güllə qorxaqları tez tapır..."...

...1942-ci ilin payızıdı. Nəriman kəşfiyyat qrupundadı...



...İki gündü ciddi döyüşlər olmur, komandanlıq bunu düşmənin hücuma hazırlaşmasına yozur. Əks-hücuma keçilməlidi. Bunun üçün kəşfiyyat məlumatlarına əsaslanmağı vacib sayır...

Batalyon komandiri dörd döyüşçü ilə Nərimanı da kəşfiyyata göndərir. 73 il keçəndən sonra düşünürəm: "Komandir bu qərarı əsgərinin hansı keyfiyyətlərini nəzərə alaraq verib?". Onu başqalarından fərqləndirməsəydi, qabiliyyətinə, iç dünyasına bələd olmasaydı, belə əmr verməzdi. Şübhəsiz ki, komandir əsgərinin iç dünyasına da bələd imiş, döyüşçü xarakterinə də...

... Soyuq gecədir. Müşahidə aparacaqları əraziyə yaxınlaşıblar. Bir qədər də irəliləyəcək, uyarlı mövqe seçib qarşı tərəfi diqqətlə nəzərdən keçirəcəkdilər...

Geri qayıdırdılar. Qəflətən yan-yörələrini güllələr didişdirdi; almanlar onları görübmüş...

Atışa-atışa geri çəkilirdilər. Sağında-solunda atəş səsləri kəsildi. Nəriman tək qalmışdı. Məlumatları qeyd elədikləri kağız parçası Saşadaydı...Onu götürməyə macal tapdı...

Sol qolundan yaralanmışdı. "Canını dişinə tutub" dözürdü, atışa-atışa geri çəkilirdi...

Dan yeri sökülürdü...

...Səhərisi hücuma keçdilər. Nəriman Məmmədovun komandirə çatdırdığı məlumatlar əsasında hazırlanmış hücum mühüm bir qələbəni təmin elədi. Almanlar strateji əhəmiyyətli dörd mövqedən geri çəkilməyə məcbur oldular. Ordu komandanlığına sıravi Nəriman Məmmədovun təltif edilməsi üçün təqdimat göndərildi...

Həmyerlimiz daha neçə-neçə döyüşdə fərqlənir. Müxtəlif orden-medallarla təltif olunur...

...Berlin ətrafında yaralanır. Səhra hospitalında müalicə olunur...

Qələbə! Böyük Qələbə! Həlak olanların qanı bahasına qazanılan Qələbə! 1441 gün çəkən döyüşlərin sonu!..

Nəriman kişi 10 övladın atası, 25 nəvənin babasıdı. Müharibədən söz düşəndə qardaşlıq qəbiristanlıqlarında dəfn olunan Əhmədi xatırlayır, Saşanı, Şotanı, Vahidi, Usmanı, ... xatırlayır. Şərait imkan vemədiyinə görə dəfn edilməyən qəhrəmanları xatırlayır. O illərdən sonra işğal olunan torpaqlarımıza görə yanıb-yaxılır...

"Nəriman dayı" - deyirəm. "Siz döyüşdünüz, qələbə qazandınız, tarix yazdınız. Biz də torpaqlarımızı işğaldan azad edib tarix yazacağıq". Gözlərinin nuru artır. Əlini çiynimə qoyur. Ata mehr-məhəbbətiylə ağır-ağır dillənir: "Məni də bu inam yaşadır, oğul..."

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Qalib kəşfiyyatçı



***Bu gün Vətən eşqi ilə alışıb yanan əsgərlərə, müasir silah-texnikaya və bacarıqlı komandirlərə malik olan Silahlı Qüvvələrimiz formalaşıb. Hər gün xidmətimizdə, məişətimizdə müsbət dəyişikliklər görürük. Bütün bunlar bizi sevindirir, məsuliyyətli olmağa sövq edir. Tarix boyu müharibələrin nəticələri göstərir ki, döyüş təcrübəsi olan ordu həmişə qalib gəlir. Təlimdə əziyyət çəkən ordu döyüşdə qalib gələrək əziyyətinin bəhrəsini görür. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun döyüş hazırlığına önəm verməsi, mütəmadi təlimlər keçirməsi buna sübutdur.***

Hərbi hissələrdə ezamiyyətimiz zamanı döyüş hazırlığına önəm verildiyinin şahidi oluruq. İxtisas və fiziki hazırlıqlar keçirilir, bilik səviyyəsini yoxlamaq üçün əsgərlərimiz arasında yarışlar təşkil edilir.

Şəki şəhərindən hərbi xidmətə çağırılan əsgər Ramiz İbrahimov da belə yarışlardan birinin qalibidir. 6 aydır ki, hərbi xidmətdə olan R.İbrahimov kəşfiyyatçıdır.

"Yarış zamanı iştirakçıların ixtisas və idman hazırlığı yoxlanıldı. 4 iştirakçı arasından qalib oldum. Bu uğurum məni qürurlandırdı. Axı ailəmə bacarıqlı və nizam-intizamlı əsgər olacağıma söz vermişdim. Vədimə əməl edib nümunəvi əsgər kimi xidmətimi başa vuracağam", - deyir təcrübəli əsgər.

Komandirinin sözlərinə görə, xidmət müddətində əsgər Ramiz İbrahimov digər hərbi qulluqçulara örnək olaraq, özünü intizamlı, qorxmaz, vətənpərvər hərbi qulluqçu kimi göstərib. O, qısa müddət ərzində nümunəvi xidməti, peşəkarlığı ilə şəxsi heyətin dərin hörmətini və ehtiramını qazanıb. Ona verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir.

Yarışda qalib gələn əsgər Ramiz İbrahimovun ailəsinə təşəkkür məktubu göndərilib, özünə isə fəxri fərman təqdim olunub.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**



*Təlim*

# "Həmişə ayıq-sayığıq"

***Baş leytenant Mirdamət Bağıyevi ötən ilin iyunundan tanıyıram. Onunla isti yay günlərinin birində Qaraheybət təlim mərkəzində rastlaşdıq. Həmin vaxtlar Silahlı Qüvvələrin irimiqyaslı təlimi keçirilirdi. Onda həmin zabit tank əleyhinə raket kompleksindən hədəflərə atəş açırdı. Söhbətimiz zamanı Mirdamət bildirmişdi ki, bu silahdan hədəfləri dəqiq vurmağı bacarır, kifayət qədər təcrübəsi var.***

Təlim vaxtı zabit M.Bağıyev hədəfi dəqiq vurdu, yaxşı nəticə göstərdi. Təmsil etdiyi hərbi hissənin adını ucaltdı. Öyrəndim ki, o buraya cəbhə bölgəsində yerləşən hərbi hissədən ezam olunub.

Həmin uğurlu təlimlərdən xeyli müddət keçib. İndi budur, onunla xidmət etdiyi hərbi hissədə görüşürük. Təlimdə olduğu kimi, indi də ovqatı yaxşıdır, üzü gülür.

- Əsgərlərimizin döyüş hazırlığı yüksəkdir, - deyir baş leytenant. - Cəbhə bölgəsində yerləşən hərbi hissədə qulluq etmək məsuliyyətimizi ikiqat artırır. Həmişə ayıq-sayığıq. Tabeliyimizdə olan şəxsi heyətə hərbi bilikləri öyrədir, döyüş vərdişlərini aşılayırıq. Artıq əsgərlərimiz tank əleyhinə raket kompleksinin sirlərini mükəmməl mənimsəyiblər. İstənilən an onlar düşmənin zirehli texnikalarını, hava hədəflərini məhv etməyə hazırdırlar.

Tədris otağına daxil oluruq. Məşğələ başlanır. Zabit M.Bağıyev dərsin mövzusunu şəxsi heyətə ətraflı izah edir. Sonra tuşlayıcı kompüter vasitəsi ilə hədəfi nişan alıb "atəş" açır. "Atəş" dəqiq olur, şərti hədəf məhv edilir. Beləcə, məşğələ davam edir. Əsgərlər bir-bir növbə ilə bacarıqlarını nümayiş etdirirlər.

Məşğələdə çavuş Kəpəz Həsənov, kiçik çavuş Aslan Hüseynov, əsgərlərdən Təhmasib Rəhimov və Fuad Əliyev daha yaxşı nəticə göstərirlər. Baş leytenant Mirdamət Bağıyev onların hər biri haqqında xoş fikirdədir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Xəbərlər:

## hadisələr, faktlar

### Bakı-Tbilisi-Qars dəmir yolunun əsas hissəsi ilin sonunadək fəaliyyət göstərəcək



Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi üzrə planlaşdırılmış bütün işlər yerinə yetirilir. Bu layihənin uğurla başa çatmasına heç bir maneə olmayacaq.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə Gürcüstan Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Georgi Kvirikaşvili deyib. Nazir bildirib ki, bu ilin sonunda layihənin əsas hissəsinin fəaliyyət göstərməsi təmin olunacaq. Axalkalaki stansiyasında aparılan işlər bir az vaxt tələb edə bilər. Lakin sərhədə qədər dəmir yolu mütləq fəaliyyət göstərəcəkdir.

### Ukraynaya 300-dək amerikalı desantçı gəlib



Aprelin 17-də 300-ə qədər amerikalı desantçı Ukrayna hərbçilərinə təlim keçmək məqsədi ilə Lvov şəhərinə gəlib. Bu məlumatı güc əməliyyatları qərargahının mətbuat katibi Andrey Lısenko da təsdiqləyib.

TASS informasiya agentliyi xəbər verir ki, Ukraynanın daxili işlər naziri Arsen Avakovun sözlərinə görə, Milli Qvardiyanın ümumilikdə 900 döyüşçüsü 300 nəfərlik qruplara bölünərək hər biri səkkiz həftə sürən təlimlərdə iştirak edəcək. Daha sonra isə Milli Qvardiyanın, "Azov", "Yaquar", "Omeqa", Kulçitski adına taborlarının, həmçinin Kiyev, Xarkov, Zaporojye, Odessa, Lvov və başqa bölgələrin hərbi hissələrinin iştirakı ilə müştərək təlimləri başlayacaq.

### Aralıq dənizində 700 nəfərədək miqrantı daşıyan gəmi batıb



Aralıq dənizində Liviya sahilləri yaxınlığında 700 nəfərə qədər miqrantı daşıyan gəmi batıb.

AZƏRTAC bildirir ki, miqrantlardan yalnız 28-ni xilas etmək mümkün olub.

Gəmi Liviya sahilindən 96 kilometr, İtaliya sahilindən isə 193 kilometr məsafədə batıb. İtaliya sahil təhlükəsizliyi xilasetmə işlərini davam etdirsə də, yüzlərlə insanın artıq boğulduğu ehtimal edilir.

### İngilislər 73 il əvvəl batan gəmini okeanın dibindən çıxarıblar



İngilis xilasediciləri Almaniyaya məxsus sualtı qayıq tərəfindən 73 il əvvəl - 1942-ci il noyabrın 4-də batırılan "City of Cairo" gəmisini Atlantik okeanının 5150 metr dərinliyindən çıxarıblar.

İkinci Dünya müharibəsi zamanı Hindistanın Mumbai şəhərindən İngiltərəyə gedərkən Müqəddəs Yelena adası yaxınlığında batırılan gəminin yeri ilk dəfə 1980-ci illərdə müəyyən olunub. Gəmi su üzünə çıxarıldıqdan sonra orada 50 milyon dollar dəyərində xəzinə də aşkarlanıb.

Qeyd edək ki, 1912-ci ilin aprelində batan "Titanik" gəmisinin qalıqları okeanın 3800 metr dərinliyindədir. İngilislər "City of Cairo" gəmisini 5150 metr dərinlikdən çıxarmaqla bu sahədə dünya rekorduna da nail olublar.

### Soçi şəhər rəhbərliyindən erməni icmasına zərbə



Rusiyanın Soçi şəhərinin rəsmi orqanları erməni icmasının uydurma "erməni soyqırımı"nın "100 illik yubileyi" ilə bağlı tədbirlər keçirməsinə icazə verməyib. Hüquq mühafizə orqanları bu cür tədbirləri şəhərdə ekstremizmin və terrorizmin təbliği kimi qiymətləndiriblər.

Bundan əlavə, yol kənarlarından uydurma soyqırımı ilə bağlı bannerlər yığışdırılıb, aprelin 18-də keçirilməsi nəzərdə tutulan anım mərasimi ləğv edilib.

Soçi Daxili İşlər İdarəsinin rəisi S.Oqurtsovun imzaladığı bildirişdə qeyd olunur ki, erməni diasporu qanunsuz aksiyalar keçirsə, məsuliyyətə cəlb olunacaq.

Yeri gəlmişkən, 2011-ci ildə Soçi rəhbərliyi erməni diasporunu quldur erməni generalı Andranikin şəhərdə qanunsuz ucaldılmış heykəlini götürməyə məcbur etmişdi.

### İŞİD qruplaşması Bağdadda eyni zamanda 6 partlayış törədib



İŞİD yaraqlıları İraqın paytaxtı Bağdad şəhərində partlayışlar seriyası həyata keçirib. Şəhərin müxtəlif hissələrində dinamitlə dolu 6 avtomobil partladılıb.

AZƏRTAC Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, partlayışlar zamanı ən azı 40 nəfər həyatını itirib.

Daha bir partlayış isə eyni ssenari üzrə İraq Kürdüstanı əyalətinin paytaxtı Ərbil şəhərində baş verib. Burada ABŞ konsulluğunun yanında dinamitlə dolu avtomobilin partladılması nəticəsində 2 nəfər həlak olub, daha beş nəfər isə yaralanıb. Diplomatik nümayəndəliyin əməkdaşlarından heç kimin xəsarət almadığı bildirilir.

### Qatarlar üçün yeni sürət rekordu: saatda 590 kilometr



Yaponiyanın Yamanasi prefekturasında maqnit yastıq üzərində hərəkət edən qatarlar (maqlev) üçün yeni sürət rekordu müəyyən edilib. JR Tokai dəmiryol şirkətinin məlumatına görə, 18 kilometrlik poliqonda aparılan sınaqlar zamanı qatar saatda 590 kilometr sürət yığıb.

TASS informasiya agentliyi xəbər verir ki, yeddi vaqondan ibarət qatarın sürəti 19 saniyə ərzində sabit qalıb. JR Tokai dəmiryol şirkətindən hazırkı rekordun maksimal həddi olmadığını və yaxın zamanlarda qatarın sürətini saatda 600 kilometrə çatdırmağı düşündüklərini bildiriblər.

Tikintisinə keçən il başlanılan dəmir yol xətlərinin 2027-ci ildə Tokio ilə Naqoya şəhərlərini birləşdirməsi planlaşdırılır. Plana əsasən, şəhərlər arasındakı 286 kilometr yolu qatarlar 40 dəqiqə ərzində qət etməlidir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Cəmşid Naxçıvanski - 120*

# Kəngərlilər nəslinin vətənpərvər oğlu



***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il aprelin 2-də görkəmli sərkərdə, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri general Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Vətənimizə generallar bəxş edən tanınmış nəslin - Kəngərlilər (Naxçıvanskilər) nəslinin nümayəndəsi olan C.Naxçıvanskinin avqustda anadan olmasının 120 ili tamam olur.***

Sərəncamda C.Naxçıvanskinin bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçməsi və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr verməsi və onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsindəki zəngin fəaliyyəti barədə fikirlər öz əksini tapıb. Müdafiə Nazirliyinin hərbi hissə, birlik və birləşmələrində, elm, təhsil və mədəniyyət ocaqlarında görkəmli generalın yubileyinə həsr olunmuş geniş tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Yaşadığı dövrün totalitar rejim qayda-qanunları general C.Naxçıvanskinin ömrünü yarıda qoydu. 43 illik həyatının 26 ilini hərb sənətinə həsr edən böyük sərkərdə ömrünün ən parlaq çağında qırmızı terrorun qurbanına çevrildi.

Qədirbilən xalqımız keçən əsrin 30-cu illərində repressiya qurbanları olmuş şəxslərin xatirəsini daim əziz tutur, onları ehtiramla yad edir.

Milli ordumuzun formalaşmasında görkəmli hərbi xadim C.Naxçıvanskinin böyük xidmətləri olub. Rusiyada baş verən inqilablar böyük çar ordusuna da təsirsiz ötüşmədi. Cənub-qərb cəbhəsinin dağılmasından sonra ştabrotmistri C.Naxçıvanski komandiri olduğu süvari alayı ilə birlikdə doğma Azərbaycana döndü və vətənpərvər zabit kimi müstəqilliyimiz uğrunda mübarizəyə qoşuldu. O, 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu, milli qoşun hissələri, Əlahiddə Korpusun tərkibində erməni-bolşevik daşnak qüvvələrinin Bakıdan çıxarılmasında və Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizədə inamla döyüşdü. Cümhuriyyət ordusunun zabiti, alay komandiri kimi çar ordusunda və müharibə cəbhələrində böyük təcrübə qazanmış istedadlı sərkərdə Azərbaycanda milli ordu hissələrinin yaradılmasında öz köməyini əsirgəmədi. Təsadüfi deyil ki, C.Naxçıvanskinin komandiri olduğu alay 1920-ci ilin martında Qarabağda erməni daşnak qüvvələrinə qarşı keçirilən döyüş əməliyyatlarında və daxili sabitliyin qorunmasında fəallıq göstərmişdir.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Hərbi Lisey öz yetirmələri ilə öyünür

## C.Naxçıvanski adına Hərbi Liseydə ildönümü mərasimi keçirilib





***Aprelin 18-də Cəmşid Naxçıvanski adına Hərbi Liseydə bu təhsil müəssisəsinin yaranmasının 44-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Mərasim başlanmazdan əvvəl Hərbi Liseyin rəhbərliyi və digər yüksək rütbəli zabitlər, qonaqlar ümummilli lider Heydər Əliyevin və görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin büstlərinin önünə gül dəstələri qoyaraq ziyarət ediblər.***

Tədbirdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Daxili Qoşunların və Sərhəd Qoşunların kursant və zabitləri, həmçinin ayrı-ayrı illərdə bu təhsil ocağını bitirən, ordumuzda xidmətini davam etdirən və ehtiyata buraxılan zabitlər də iştirak edirdi. Liseyin kursant və zabitləri bayram libasında sıra meydanına toplaşmışdılar. Polkovnik Fuad Şərifzadə general-mayor Mirzə Almasova şəxsi heyətin Hərbi Liseyin yaranmasının 44-cü ildönümü münasibəti ilə düzüldüyü barədə məruzə etdi. Məktəbin yaradıcısı ulu öndər Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anıldı. Hərbi orkestrin ifasında Dövlətimizin himni səsləndirildi və bundan sonra mərasimin rəsmi hissəsi açıq elan olundu.

Mərasimdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun C.Naxçıvanski adına Hərbi Liseyin kollektivinə ünvanladığı təbrik məktubu oxundu. Təbrikdə deyilirdi: "1971-ci ildə ulu öndərimiz Heydər Əliyev tərəfindən milli zabit kadrlarımızın yetişdirilməsi məqsədi ilə yaradılmış liseydə minlərlə azərbaycanlı gəncin ordu həyatına hazırlanması və gələcəyin peşəkar zabitləri kimi formalaşması üçün böyük işlər görülmüşdür. Məhz bunun nəticəsidir ki, Hərbi Liseyin yetirmələri bu gün Silahlı Qüvvələrdə və digər güc strukturlarında şərəf və ləyaqətlə xidmət edirlər".



Müdafiə nazirinin təbrikində əminliklə qeyd olunub ki, bu günün kursantları gələcəyin zabitləri kimi nümunəvi xidmətlərilə şanlı hərb tariximizə yeni səhifələr yazacaqlar.

Tədbirdə çıxış edən general-mayor Mirzə Almasov qeyd etdi ki, 19 aprel Hərbi Liseyin həyatında ən əziz və unudulmaz günlərdən biridir. "2003-cü ilin bu günü Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev C.Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyəti ilə görüşmüş və liseyə Döyüş Bayrağı təqdim etmişdir. Məhz bu günü əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikası Müdafiə nazirinin 5 aprel 2014-cü il tarixli müvafiq əmrinə əsasən, "19 aprel C.Naxçıvanski adına Hərbi Lisey günü" elan edilib, - deyə məktəb rəisi bildirib.

O qeyd edib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin hərbi təhsilə diqqət və qayğısı nəticəsində Hərbi Lisey müasir təlim və tədris vasitələri ilə təmin olunub. Liseydə kursantların bilik və bacarıq əldə etməsi məqsədilə müntəzəm yeniliklər tətbiq olunur. Ölkəmizdə elə bir xidmət sahəsi yoxdur ki, orada Hərbi Liseyin məzunları çalışmasın.

Tədbirdə çıxış edən əməkdar müəllim, ehtiyatda olan polkovnik-leytenant Abbas Abbasov bildirdi ki, ömrünün 36 ili bu müqəddəs təhsil ocağında keçib. Gələcəyin zabitləri olan kursantlara ictimai fənləri tədris etməkdən hər zaman qürur duyduğunu deyən vətənpərvər pedaqoq ulu öndərin öz övladı hesab etdiyi C.Naxçıvanski adına Hərbi Liseydə işləməyin onun üçün ikiqat sevinc olduğunu bildirdi.

Kursantlar adından Bəhmən Məhəmmədli və Rəvan Şərifov çıxış edərək hərb elminə böyük maraq bəslədiklərini və gələcəkdə Vətənimizin müdafiəsində uğurlar əldə edəcəklərini inamla qeyd etdilər.

Rəsmi hissənin sonunda Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun adından xidmətdə fərqlənənlərə fəxri fərmanlar verildi.

Sonda kursantların iştirakı ilə bədii hissə təşkil olundu. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının da üzvlərinin ifasında səslənən hərbi vətənpərvərlik mahnıları tədbir iştirakçılarına xoş ovqat aşıladı.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

**Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.**
**Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.**
**Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.**
**Laçın (18 may 1992-ci il) - 1835 kv.km.**
**Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.**
**Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.**
**Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.**
**Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.**
**Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.**
**Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.**

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Avropa Parlamentində "Bakı-2015" ilk Avropa Oyunlarının təqdimatı olub



Avropa Parlamentində "Bakı-2015" ilk Avropa Oyunlarının təqdimatı keçirilib. AZƏRTAC bildirir ki, tədbirin təşkilində Avropa İttifaqının Bolqarıstandan olan deputatı İlhan Küçük xüsusi fəallıq göstərib.

Mərasimdə gənclər və idman naziri Azad Rəhimov tədbirdə məruzə ilə çıxış edərək "Bakı- 2015" ilk Avropa Oyunlarına hazırlıq prosesindən, görülmüş işlərdən və Oyunların ilk dəfə məhz Azərbaycanda keçirilməsinin əhəmiyyətindən danışıb.

Tədbirdə ilk Avropa Oyunları ilə bağlı videoçarx nümayiş etdirilib. Azərbaycanda yaradılmış çoxfunksiyalı, müasir idman infrastrukturu tədbir iştirakçılarının böyük marağına səbəb olub.

## Azərbaycan yığması beynəlxalq turnirdə birinci oldu



Azərbaycan Güləş Federasiyasının Kuboku uğrunda keçirilən ənənəvi beynəlxalq turnirdə Azərbaycan yığması birinci oldu.

AZƏRTAC xəbər verir ki, yarışlarda güləşçilərimiz 9 medal qazanıblar. Bunlardan 5-i qızıl, 1-i gümüş və 3-ü bürünc olub. Ümumilikdə isə Azərbaycan güləşçiləri aprelin 16-dan 19-dək keçirilən turnirdə 11 qızıl, 13 gümüş və 20 bürünc medal qazanıblar.

Birinci Avropa Oyunlarının güləş yarışlarına test xarakteri daşıyan turnirin sonuncu günündə gənclər arasında sərbəst güləş üzrə 148 idmançı mübarizə aparıb. Komanda hesabında Türkiyə ikinci, Rusiya yığması isə üçüncü yeri tutub.

Turnirdə Azərbaycan pəhləvanları ilə yanaşı, 12 ölkənin güləşçiləri iştirak edib.

## Azərbaycan boksçuları bir gündə 7 qızıl medala sahib oldular



Avropa Oyunlarına hazırlıq xarakteri daşıyan "Böyük İpək yolu" turnirində boksçularımız ümumilikdə 7 qızıl medal qazanıblar.

Xatırladaq ki, turnirin əvvəlində Azərbaycan milli komandasının daha 4 üzvü qızıl medal qazanmışdı. Yarışda Azərbaycan idmançıları ilə yanaşı, 10 ölkənin boksçuları mübarizə aparıblar.

## Azərbaycanın taekvondoçuları Moldovadan 9 medalla qayıdıb



Moldovanın Kişinyov şəhərində keçirilən "G-1" kateqoriyalı "Moldova Open" beynəlxalq turnirində 23 idmançı ilə təmsil olunan yığmamız 9 medal qazanıb.

Azərbaycan Taekvondo Federasiyasından AZƏRTAC-a bildiriblər ki, idmançılarımız İlkin Şahbazov (74 kq), Radik İsaev (87 kq), Fəridə Əzizova (67 kq) qızıl, Sina Bəhrami (63 kq), Nurgül Çəlik (49 kq) gümüş, Əhməd Məhəmmədi (87 kq), Patimat Abakarova (49 kq), Daria Şkurko (62 kq) və Parisa Məhəmməd Nejad (73 kq) isə turniri bürünc medalla başa vurublar.

## 16 yaşadək qızlardan ibarət Azərbaycan yığması UEFA turnirinin qalibi olub



16 yaşadək qızlardan ibarət Azərbaycan yığması Bakıda keçirilən UEFA-nın İnkişaf turnirinin qalibi olub.

AZƏRTAC-a AFFA-dan verilən məlumata görə, yığmamız Bayıl stadionunda keçirilmiş son oyunda Yunanıstan komandası ilə qarşılaşıb. Oyun 1:1 hesabı ilə başa çatdığı üçün qalib penalti seriyasında müəyyənləşib. Zərbələri daha sərrast yerinə yetirən yığmamız 4:2 (ümumi nəticə - 5:3) hesabı ilə qalib gəlib.

Turun "Dalğa Arena"da keçirlmiş digər oyununda isə Qazaxıstan yığması 1:0 hesabı ilə gürcüstanlı futbolçulara qalib gəlib.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

# Silahlı Qüvvələrin atıcılıq birinciliyi

***Silahlı Qüvvələrimizdə keçirilən müxtəlif idman növləri üzrə birinciliklər döyüşçülərimiz arasında gərəkli olan vərdişlərin qazanılmasına yardımçı olur. Axı bu yarışlarda daha çox hərbçilərə lazım olan güc, çeviklik, dözümlülük, sərrastlıq kimi keyfiyyətləri tərbiyə edən idman növləri üstünlük təşkil edir.***

Bu günlərdə başa çatmış Silahlı Qüvvələrin atıcılıq birinciliyinə Müdafiə Nazirliyinin müxtəlif bölgələrdəki hərbi hissələrindən seçilmiş döyüşçülər gəlmişdilər.

Üç silah növü üzrə keçirilən yarışda komandalar qələbə uğrunda mübarizəyə qatılmışdı. Makarov tapançası, AKM avtomatı və SVD tüfəngindən atəş açmağa hazırlaşan zabit, gizir və əsgərlər öz ustalıqlarını göstərmək üçün təlim meydanında mübarizəyə başladılar.

Birincilikdə hər komandanın 6 idmançısı mükafatlar uğrunda mübarizə aparırdı. Onlar doğma hərbi hissələrinə qələbə ilə qayıtmaq üçün əllərindən gələni əsirgəmirdilər.

Avtomatçıların yarışı yetərli idman mübarizəsi şəraitində keçdi. Bu silahlardan atəş açmağa hazırlaşan atıcılar, qaydalara əsasən, 100 metrlik məsafədə yerləşən döş hədəfinə uzanıqlı, eyni zamanda oturaq vəziyyətdə və ayaq üstdə atəş açırdılar. Bu istiqamətdə əvvəlcə yoxlama məqsədilə avtomatçılar üç güllə atırdılar. Sonra verilmiş 30 güllənin hədəfə atışı məqbula sayılırdı. Və bütün güllələr müəyyən edilmiş vaxt çərçivəsində atılmalıydı. Atəş dayanandan sonra hakimlər hədəflərə yaxınlaşıb xalları hesablayırdılar. Əlbəttə, yarışa qatılan bütün atıcılar qalib gəlmək məqsədilə birincilikdə iştirak edirdilər. Ancaq təbii ki, hamı qalib olmur.

Yarışın yekununda hakimlər avtomatdan atışın nəticələrini hesablayaraq qalibləri müəyyənləşdirdilər. Bu növdə keçirilən yarışda "Şəmkir" komandasının üzvü baş gizir Samir Rzayev bütün rəqiblərindən daha sərrast oldu və haqlı olaraq yarışların qızıl medalına sahib çıxdı. İkinci yeri "bərdəli" kapitan Rasim Abbasov tutdu. Mükafata layiq üçüncü nəticəni isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini təmsil edən mayor Tariyel Xəlilov göstərdi.



Silahlı Qüvvələrin atıcılıq birinciliyində snayperlərin yarışının daha maraqla gözləndiyini desəm, yəqin ki, yanılmaram. Bütün idmançılar öz hərbi hissələrində digər növlərdə olduğu kimi, snayper tüfəngindən atışda layiqli mübarizə aparmaq üçün hazırlıq keçmişdilər.

Snayperlər 500 metr məsafədə yerləşən hədəfə SVD-nin optik cihazının köməyilə atəş açmalı idilər. Şübhəsiz ki, bu, idmançılardan sərrastlıqla yanaşı, küləyin belə istiqamətini nəzərə almağı tələb edirdi. Əks halda cüzi qeyri-dəqiqlik uzaq məsafəyə atış zamanı nəticəyə böyük təsir göstərə bilərdi. Əvvəlcə snayperlərə də yoxlama məqsədilə 5 güllə verildi, bundan sonra onlar hədəfə uzanıqlı vəziyyətdə 20 güllə atdılar.

Hədəfi bütün rəqiblərindən daha sərrast nişan almış kapitan-leytenant Səxavət Qarayev birinciliyin qızıl medalına layiq görüldü. Silahlı Qüvvələrin atıcılıq birinciliyinin gümüş medalını Hərbi Dəniz Qüvvələrinin miçmanı Nizaməddin Məmmədov boynundan asmaq imkanı əldə etdi. Üçüncü yeri isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin komandasından mayor Zöhrab Muradov tutdu və birinciliyin bürünc medalını qazandı.

Tapançadan atəş üçün hər bir iştirakçıya yoxlama məqsədilə 3 güllə verilirdi. Bundan sonra onlara verilən 10 güllədən atışın nəticələri hakimlər tərəfindən qeydə alınırdı. Yoxlama atışı üçün verilmiş güllələri atmaqla idmançılar əslində istifadə etdikləri silahın xüsusiyyətilə tanış olmaq imkanı qazanmışdılar. Ona görə hədəflərə açılan atəşlər zamanı idmançılar daha sərrast olmağa çalışırdılar.

Tapançadan atəş açan hərbçilər 25 metr məsafədə yerləşən hədəfləri nişan alırdılar. Bu zaman, qaydalara görə, idmançılar hədəfə ayaq üstdə bir əllə 10 güllə atmalı idilər. Müəyyən edilmiş vaxt çərçivəsində onlar atəşi başa çatdırmalı idi. Yarış başa çatdıqdan sonra hakimlərin hesablamalarına əsasən, Hərbi Dəniz Qüvvələrinin idmançısı ikinci dərəcəli kapitan Elşən Məmmədov ən yaxşı nəticə göstərdi və atıcılıq birinciliyinin bu növündə qalib adını qazandı. Sonrakı mükafata layiq yerləri yarışlara daha yaxşı hazırlaşmış Hərbi Dəniz Qüvvələrinin digər idmançısı üçüncü dərəcəli kapitan Orxan Qasımov və Hərbi Hava Qüvvələrinin zabiti polkovnik-leytenant Rafiq Cəfərov tutdular.

Fərdi nəticələrdən də göründüyü kimi, Hərbi Dəniz Qüvvələrinin idmançıları Silahlı Qüvvələrin atıcılıq birinciliyində bütün rəqiblərindən sərrast oldular və bununla da komanda hesabında birinci qrupda ən yüksək yeri özlərinə təmin etdilər. HDQ-nin 3 nümayəndəsi birinciliyin müxtəlif əyarlı medallarına layiq görülməklə komandalarına birincilik qazandırdı və keçici kuboku da özlərinə təmin etdi.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin atıcıları isə birincilikdə ümumi hesabda ikinci nəticə göstərdilər. Nəhayət, Silahlı Qüvvələr birinciliklərində həmişə mükafatlar uğrunda mübarizə aparmış "Şəmkir" komandası birinci qrupda üçüncü yerə layiq görüldü.

İkinci qrupda Təlim və Tədris Mərkəzinin komandası bütün rəqiblərini qabaqlayaraq birinci oldu.

Silahlı Qüvvələrin atıcılıq birinciliyinə yekun vuran Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik-leytenant Sadiq Paşayev ayrı-ayrı növlər üzrə yarışın gedişini təhlil etdi. Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən 2015-ci ilin "Döyüş hazırlığı ili" elan olunduğunu xatırladan zabit yerlərdə döyüş hazırlığına, həmçinin fiziki hazırlıq və idmana diqqətin daha da artırıldığını, bunun nəticəsində də komandalar arasında yüksək yerlər uğrunda rəqabətin gücləndiyini bildirdi.

Sonda idmançılara və komandalara medallar, diplomlar və keçici kubok təqdim edildi.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

## Modernləşdirilmiş İl-38H təyyarəsi

Gələn il Sakit Okean Donanmasının silahlanmasına modernləşdirilmiş ilk qayıqəleyhinə İl-38H təyyarəsi qəbul ediləcək. Maşın yeni "Novella-P-38" axtarış-nişangah sistemi ilə təchiz edilib. Bu da təyyarənin döyüş imkanlarını artırmağa imkan verəcək. Bu sistemlə 90 kilometrlik məsafədə yerləşən hava hədəflərini, 320 kilometrlik məsafədə isə suüstü hədəfləri aşkar etmək olar. Bununla yeni sistem eyni vaxtda, real zaman şəraitində 50 hədəfi müşayiət edə bilər.

İl-38H təyyarəsi İl-18 sərnişin təyyarəsi əsasında hazırlanıb. Təyyarə sualtı qayıq əleyhinə gəmilərlə birgə və yaxud sərbəst sualtı qayıqların axtarışı və onların məhv edilməsini həyata keçirə bilər. Bu təyyarədən dənizdə kəşfiyyat aparmaq, axtarış-xilasetmə əməliyyatlarında və mina çəpərlərinin quraşdırılmasında da istifadə edilə bilər. 2020-ci ilə qədər 28 ədəd belə maşınların modernləşdirilməsi planlaşdırılıb. Gələcəkdə isə onlar yeni nəsildən olan gözətçi gəmiləri ilə əvəz edilə bilər.

## "Euro Hawk" pilotsuzunun hazırlanmasına yenidən baxacaq

Almaniyanın Müdafiə Nazirliyi 2013-cü ilin mayında müdafiə üzrə maliyyə vəsaitinin çatışmamasına görə, strateji pilotsuz "RQ-4E Euro Hawk" uçan aparatının hazırlanması üzrə layihəsini dayandırıb. Verilən məlumata görə, hərbi idarə bu işin yenidən davam etdirilməsi üçün bu ilin yanvarında Amerika şirkəti Northrop Grumman və Avropa Aibus Aviatikinti Konserni ilə müqavilə bağlayıb. Müqavilənin şərtlərinə görə, şirkət layihənin işlənilməsinə yenidən baxmalı və pilotsuza texniki xidmətin göstərilməsinə qiymət verməlidir. Bütün işlər 15 həftə ərzində yerinə yetirilməlidir. Bu qiymətləndirmədən sonra yeni bir müqavilənin də bağlanılacağı nəzərdə tutulub. Sonrakı mərhələdə isə podratçı-şirkət tərəfindən "Euro Hawk" pilotsuzunun faydalı yükünün yerüstü və aparatın uçuş sınaqları da həyata keçiriləcək.

Layihənin ümumi qiyməti milyard avro təşkil edib, onun 508 milyonu pilotsuzun ilk nümunəsinin hazırlanması və yığılmasına xərclənib. Pilotsuzun üzərində Almaniya Hərbi Hava Qüvvələrində zəruri olan radiotexniki kəşfiyyat sistemi quraşdırılıb. Almaniyanın silahlanmasına beş ədəd pilotsuz uçan aparatın qəbul edilməsi də planlaşdırılıb. Onların qoyuluşu 2016-cı ildə başa çatacaq.

**Hazırladı:
Svetlana NƏSİBQIZI**

Baş gizir Bədirli Ceyhun Fərraş oğluna 2015-ci ilin martında verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 420
Nüsxə 4600